MİRZƏ FƏTƏLİ AXUNZADƏNİN KOMEDİYALARININ DİLİNDƏ İŞLƏNMİŞ TABELİ MÜRƏKKƏB CÜMLƏLƏRİN KOMPONENTLƏRİ ARASINDAKI SEMANTİK ƏLAQƏLƏR

Semantic Connections Between the Components of Compound Sentences in Comedies by Mirza Fatali Akhundzade

İLKİN GULİYEV[1]

Özet:

M. F. Ahundzade XIX. y.y. Azerbaycan edebi dilinin zenginleşmesinde büyük rol almıştır. O, komedi türünde yazdığı eserleriyle Azerbaycan dilinin kelime hazinesinin genişlemesini sağlamış ve milli dil imkanlarını sergilemiştir. Ahundov'un komedilerinde yer alan birleşik cümlelerin tahlili, bu tür cümle çeşidinin unsurları arasındaki bağlantıların incelenmesi o dönemdeki dilin sentaktik durumu hakkında bilgi edinme konusunda büyük önem arz ediyor.

Anahtar kelimeler: M.F.Ahundzade, Azerbaycan edebi (standart) dili, bağlı birleşik cümle, semantik alaka

Abstract:

Comedies by M. F. Akhundzadeh played a special role in the enrichment of the Azerbaijani literary language of the XIX century. Those comedies gave opportunities to enrich vocabulary of the national literary language and to reveal its possibilities. Analysis of the compound sentence used in the comedies by Akhundzadeh, semantic relations between the components of those sentences gives some idea about syntactical peculiarities of the language of that period.

Keywords: M. F. Akhundzadeh, Azerbaijani literary language, compound sentences, semantic relations

---

[1] Doç. Dr., Kafkas Üniversitesi, Çağdaş Türk Lehçeleri ve Edebiyatları bölümü öğretim üyesi, guliyevilkin@mail.ru

İlkin GULİYEV

Yalnız Azərbaycanda deyil, Yaxın Şərq ölkələrində dramaturgiyanın banisi sayılan M. F. Axundzadənin canlı xalq dili əsasında yazdığı komediyalar XIX əsr Azərbaycan ədəbiyyatında yeni bir mərhələnin başlanğıcı sayılmaqla yanaşı, bu dövr Azərbaycan ədəbi dilinin şifahi və yazılı qolunun vəhdət halında inkişafı baxımından böyük əhəmiyyət kəsb edir. Q. Kazımov Azərbaycan ədəbi dilinin bu mərhələsini belə dəyərləndirir: "Ədəbi dilin inkişafında hər bir kiçik mərhələnin rolu vardır... XIX əsrin ikinci yarısı M. F. Axundzadənin komediyaları ilə başlayır. Komediyalar vasitəsilə xalq dilinin quruluş xüsusiyyətləri, zəngin lüğət materialı ədəbi dilə gətirilir, müxtəlif istiqamətlərdə milli ədəbi dilin imkanları üzə çıxarılır" [Kazımov, 2010: 149].

N. Məmmədov Azərbaycan ədəbi dilinin inkişafında M. F. Axundzadənin söz ustası olması və komediyalarının lüğət tərkibi haqqında aşağıdakı qənaətə gəlir: "M.F.Axundzadə Azərbaycan dilinin tükənməz sərvətinə mükəmməl yiyələnmiş, onun səciyyəvi xüsusiyyətlərini, qrammatik qayda-qanunlarını, ən incə çalarlarını, müxtəlif ictimai təbəqələrin nitq-danışıq üslublarını dərindən öyrənmiş, xalq dilinin zəngin və rəngarəng söz ehtiyatından, qüdrət və imkanlarından məharətlə istifadə etmişdir... Onu da qeyd etmək vacibdir ki, komediyalarda istifadə olunmuş canlı xalq dilinə məxsus söz və ifadələrin böyük bir hissəsini yazılı ədəbiyyatımıza ilk dəfə məhz Mirzə Fətəli gətirmiş, onlara tam vətəndaşlıq hüququ qazandırmışdır" [Axundzadə, 2007, 20].

Tədqiqatçıların fikirləri komediyaların dilinin zənginliyi haqqında müəyyən təsəvvür yaradır və XIX əsr Azərbaycan ədəbi dilinin öyrənilməsində Axundzadənin komediyalarının zəngin dil faktları verdiyini sübut edir. Beləliklə, komediyaların dilində vətəndaşlıq hüququ qazanmış sözlərin söz birləşməsi və cümlə şəklində, cümlələrin mətn şəklində əlaqələnməsi qaydalarından söz açmaqla, XIX əsr Azərbaycan ədəbi dilinin sintaktik mənzərəsi haqqında fikir bildirmək mümkündür. Bu baxımdan, komediyaların dilində işlənmiş tabesiz mürəkkəb cümlə və onun komponentləri arasında semantik əlaqələrin tədqiqi də aktuallıq kəsb etməkdədir.

Azərbaycan və rus dilçiliyində mürəkkəb cümlə və onun növləri, mürəkkəb cümlənin komponentlərinin bir-birinə münasibəti, komponentlər arasındakı semantik əlaqələr haqqında bir sıra dəyərli tədqiqat əsərləri yazılmışdır. [bax. Tağızadə, 1960; Abdullayev, 1961; Kazımov, 2004; Müasir Azərbaycan Dili (MAD), 1981; Müzəffəroğlu, 2002; Абдурахманов, 1960; Гвоздев, 1955, Покровская, 1978; Руднев, 1968]. Bu əsərlərdə mürəkkəb cümlələrin təfəkkürün mürəkkəbləşməsi və nitqin əlaqəli və eyni zamanda, yığcam bir şəkildə inkişaf etməsi nəticəsində əmələ gəldiyi [Abdullayev, Seyidov 1974: 44], fikirlərin əlaqəsini və qarşılıqlı münasibətini ifadə etmək üçün son dərəcə müxtəlif imkanlar

verdiyi [Гвоздев, 1955: 373], nitq mədəniyyətinin sonrakı dövrlərinin məhsulu olmaqla, obyektiv aləmi əks etdirməyin daha yüksək vasitəsi olduğu qeyd edilir [Kazımov, 2004: 280; Руднев, 1968: 220].

Mürəkkəb cümləyə dair yazılmış tədqiqat əsərlərində tabesiz mürəkkəb cümlənin təsnifi prinsiplərində fikir ayrılığının mövcud olmasına baxmayaraq, təsnifat zamanı tabesiz mürəkkəb cümlənin komponentləri arasındakı semantik əlaqələrin əsas götürülməsi fikri qəbul olunmaq üzrədir. "Müasir Azərbaycan dili" dərsliyində deyilir: "Ümumiyyətlə, tabesiz mürəkkəb cümlələri təsnif edərkən komponentlərin mənaca əlaqəli olmasını birinci növbədə nəzərə almaq lazımdır. Bununla yanaşı, hər hansı məna əlaqəsinin formalaşmasına kömək edən qrammatik vasitələri də nəzərdən qaçırmaq olmaz. Bu vaxta qədər qrammatika yazanlar tabesiz mürəkkəb cümlələri ya onların komponentləri arasındakı məna əlaqələrinə görə, ya da onları bağlayan bağlayıcılara görə bölmüşlər. Bağlayıcılara görə bölmək özünü doğrultmur, çünki bir bağlayıcı bir neçə məna əlaqəsində işlənə bilir. Ona görə də bölgü formal xarakter daşıya bilər. Komponentləri məna əlaqələrinə görə bölmək daha əlverişlidir" [Müasir Azərbaycan dili, 1981: 357]. "Bu məna əlaqələri bağlayıcılı tabesiz mürəkkəb cümlələrdə bağlayıcılar, bağlayıcısız tabesiz mürəkkəb cümlələrdə isə cümlənin ümumi məzmunu ilə ifadə edilir" [Rəcəbli, 2003: 454].

T. A. Kolosova yazır ki, "sadə cümlədə olduğu kimi, mürəkkəb cümlənin komponentləri də müəyyən bir situasiyanı əks etdirir, bu da müxtəlif hadisələrin dildəki əksi, işarəsi olur" [Колосова, 1980: 87]. Həmin situasiyalar məntiqi ardıcıllıq, zaman və məkan münasibətləri kimi bir sıra məntiqi-semantik şərtlərlə bağlı olur [Həsənova, 1986: 28].

N. A. Baskakov da tabesiz mürəkkəb cümlənin tədqiqinin onların tərəfləri arasındakı semantik münasibətə əsaslanmalı olduğu qənaətinə gəlmişdir. [Баскаков, 1970: 19]

Türkiyə dilçiliyində mürəkkəb cümlənin təsnifi zamanı tabesiz mürəkkəb cümlələr *"sıra cümlələr"* [Ediskun, 1988: 375], *"sıralı cümlə"* [Karahan, 1993: 62; Yaman, 2000: 273], *"bağlı cümlələr"*[Karaağaç, 2012: 240] adı altında tədqiq edilmiş, lakin tabesiz mürəkkəb cümlənin konponentləri arasında semantik əlaqənin növlərindən bəhs olunmamışdır.

Azərbaycan dilinin sintaksisinə dair yazılmış kitabları araşdırıraq mükəmməl bir ali məktəb dərsliyi yazan Q. Kazımov quruluş xüsusiyyətlərinə, qrammatik mənasına, bağlayıcıların və intonasiyanın xarakterinə görə tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında aşağıdakı məna əlaqələrinin olduğunu göstərir: *birləşdirmə əlaqəsi, səbəb-nəticə əlaqəsi, aydınlaşdırma əlaqəsi, qarşılaşdırma əlaqəsi, bölüşdürmə əlaqəsi, qoşulma əlaqəsi* [Kazımov, 2004: 280].

İlkin GULİYEV

Müasir ədəbi dilimizdə tabesiz mürəkkəb cümlələrin tərkib hissələri arasındakı məna əlaqələri M. F. Axundzadənin komediyalarının dilində də eyni qrammatik semantikaya malik olmuşdur. Q. Kazımovun təsnifatını əsas götürərək, komediyaların dilində işlənmiş tabesiz mürəkkəb cümlələri komponentləri arasındakı semantik əlaqələrə görə aşağıdakı kimi təsnif edə bilərik:

Birləşdirmə əlaqəsi. Ə. Dəmirçizadə tabesiz mürəkkəb cümləni birləşdirmə, qarşılaşdırma və bölüşdürmə məna əlaqələrinə bölür və birləşdirmə əlaqəsi daxilində zaman eyniliyi və zaman ardıcıllığını əlaqənin yarım tipləri kimi şərh edir [Dəmirçizadə, 1947: 53]. Bu fikrə eyni şəkildə L. A. Pokrovskayada da rast gəlirik [Покровская, 1978: 66].

Birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələrin ***eynizamanlı və ardıcılzamanlı birləşdirmə*** adı altında iki növü M. F. Axundzadənin komediyalarının dilində də özünü göstərir. Bu mürəkkəb cümlələrin komponentlərində müxtəlif iş və hadisələr qeyd edilir, həmin iş və hadisələrin ya eyni zamanda, yaxud da müəyyən ardıcıllıqla icra edildiyi (və ya edilmədiyi) ifadə olunur. Bu barədə E. İ. Rombandeva yazır: "Birləşdirmə münasibətində olan bağlayıcısız tabesiz mürəkkəb cümlələr həm eynizamanlı, həm də ardıcıl olaraq bir-birini əvəz edən fakt vahidləri birləşdirə bilir" [Ромбандева, 1972: 128].

Eynizamanlı birləşdirmə. Birləşdirmə əlaqəsinin bu növünə M.F.Axundzadənin komediyalarının dilində daha çox rast gəlmək olur. Tərkib hissələrdə sadalanan hadisələr vahid zaman ərzində baş verir; məs.: *Bir misqal ondan bir batman misə vurur, xalis gümüş olur.* [Axundzadə, 2007: 31]; *Şərəfnisə xanım ikimci damda ahəstə ağlaya-ağlaya yun darayır, kiçik bacısı Gülçöhrə yanında oynuyur.* [Axundzadə, 2007: 45]; Allah götürərmi *Şahbaz getsin Parijdə kef etsin, on beş yaşında gül üzlü uşağım ah çəksin, qan tüpürsün, saralıb sapa dönsün, incəlib ipə dönsün?!* [Axundzadə, 2007: 55]; *Müsyö Jordan təəccüb edir və Şahbaz bəy qeyzlə samit qalır.* [Axundzadə, 2007: 54]; Gir çadıra, bir *məcməi içində üç rəng-rəng balaca şüşə var* ***və*** *üç rəng-rəng bükülmüş kağız var,* götür gətir... [Axundzadə, 2007: 42] və s.

Zaman üzrə birləşən cümlələrin bir qismi tərkib hissələrin paralelizmi əsasında qurulmuşdur; məs.: *Yeməyin bol, geyməyin bol,* dəxi niyə ağlayırsan? [Axundzadə, 2007: 46], *Nə at çapmağın qiyməti var, nə tüfəng atmağın hörməti var*! [Axundzadə, 2007: 121]; Zəmani ki, mənim bəxtimdən həmşəhərlilərim də ki, sizsiniz, *nə kamal var, nə ağıl var, nə beyin var...* [Axundzadə, 2007: 34] və s.

Bu cür cümlələrin bir qismində təkrar olunan üzv cümlənin birinci komponentində ya bütöv şəkildə buraxılmış, yaxud da bir hissəsi ixtisar edilmişdir; məs.: Gərçəkdən ki, *qız uşağının ağlı olmaz imiş, gözünün yaşı*

əlində olurmuş. [Axundzadə, 2007: 47] və s. Bir sıra cümlələrdə xəbərin və ya xəbərlik şəkilçisini ixtisarı da tərkib hissələri əlaqələndirən vasitə kimi çıxış edir; məs.: Allaha şükür, *atam sağ, anam sağ,* dəxi nə var ki, ağlayım? [Axundzadə, 2007: 46]; Görərsən; *sən də öz bildiyindən, mən də öz bildiyimdən!* [Axundzadə, 2007: 54]; *Qul xatasız olmaz, ağa kərəmsiz.* [Axundzadə, 2007: 156] və s.

Geniş yayılmış üsullardan biri də tabesiz mürəkkəb cümlənin hər iki komponentində yiyəlik hallı şəxs əvəzliyinin buraxılmasıdır: məs.: Fərraşlar naziri yıxırlar, ayağın fələqqəyə salırlar, *ikisi* fələqqəni tutur, *ikisi* çubuq götürür. [3, 103]; *Atmağın məlum deyil, vurmağın məlum deyil.* [Axundzadə, 2007: 73] və s. Bu barədə R.Xəlilov yazır: "Bədii dil mürəkkəb cümlələrdə müəyyən sözlərin buraxılmasına da imkan verir. Belə ki, bir qisim tabesiz mürəkkəb cümlələrdə təkrara və sözçülüyə yol verməmək məqsədi ilə ortaqlı, yaxud eyniyyət təşkil edən sözlər buraxılır. Bunun nəticəsində mürəkkəb cümlə daha qıvraq şəkil alır, fikrin ifadəsi daha yığcamlaşır, daha bütöv qavranılır" [Azərbaycan bədii dilinin üslubiyyatı (ABDÜ), 1970: 340].

Birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələr açıq sıralı cümlələrdir, sadalama yolu ilə qurulur, ona görə də iki tərkib hissədən ibarət olduğu kimi, üç-dörd və daha çox tərkib hissədən də ibarət ola bilir [Kazımov, 2004: 290]. "Belə cümlələr vasitəsilə daha çox hadisə, fikir bir-biri ilə bağlanır... Buradakı hadisələr eyni zamanda, yaxud bir-birinin ardınca baş verdiyindən belə cümlələr axıcı və dinamik olur, bir-biri ilə zəncirvari bağlanır" [ABDÜ, 338]. Məsələn: Əgər desələr ki, pul gətirmişik, gümüş alacayıq, de ki, *ustadım keçmiş kürələrin gümüşünü tamam Əylis ermənilərinə veribdir və bu əldəki kürənin gümüşü dəxi onlara satılıbdır və ikinci kürənin iksirinin təkmil və tamam olmağına bir ay qalıbdır.* [Axundzadə, 2007: 35] və s.

Ardıcılzamanlı birləşdirmə. A.Axundov yazır ki, "bu əlaqə tərkib hissələrində ifadə olunan hərəkətlərin bir-birinin ardınca, sistematik surətdə icra olunduğunu bildirir. Ardıcıllıq əlaqəsi öz xüsusiyyətlərinə görə zaman əlaqəsinə oxşayır. Lakin zaman əlaqəsində tərkib hissələrini ifadə etdikləri hal və hərəkətlər eyni zamanda baş verdiyi halda, bu əlaqədə onlar ardıcıl surətdə, biri digərini izləyərək icra olunur" [MAD, 1972: 180].

M.F.Axundzadənin komediyalarının dilində birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlənin bu növü də kifayət qədər işlənmişdir; məs.: *Əvvəldən bir az uf-tuf elər, sonra çarəsi kəsilər...* [Axundzadə, 2007: 72]; *Kərim də xançal çəkir, bir-birinin üstünə hücum edirlər.* [Axundzadə, 2007: 94]; İndi ağlım başımda yoxdur, *bibin gəlsin getsin, sonra mən vəkil taparam* [Axundzadə, 2007: 91] və s. T.Müzəffəroğlu yazır ki, "sadalama" deyilən əlaqə tipində vəziyyət belədir ki, komponentlərdəki hadisələr funksional cəhətdən eynicinsli olur və onları yalnız intonasiya birləşdirir;

belə ki, burada birinci komponentdən sonra davamedici intonasiyanın olması ikinci komponentin gəlişini şərtləndirir [Müzəffəroğlu, 2002: 57].

Bu cür cümlələrin tərkib hissələrinin əlaqələnməsində ***sonra*** sözünün xüsusi rolu vardır; məs.: *O yana-bu yana vurxunub girir pərdə dalısında gizlənir, sonra Teymur ağa ilə Şölə xanım içəri girir.* [Axundzadə, 2007: 106] və s.

Ardıcılzamanlı tabesiz mürəkkəb cümlələrin tərkib hissələrinin əlaqələnməsində sayla ifadə olunmuş ***ara sözlərin*** rolu da diqqət çəkir; məs.: ***Əvvələn,*** malınız, pulunuz artar, ***ikinci*** ad-san çıxardarsınız. [Axundzadə, 2007: 78] və s. Zahirən belə görünə bilər ki, sadalama əlaqəsində, xüsusən də komponentləri eynizamanlılıq ifadə edən vəziyyətdə komponentlər çox da mühüm olmayan bir düzülüş sisteminə malikdir. Lakin həqiqətdə isə orada da müəyyən qanunlar özünü göstərir və daha əhəmiyyətlisi qabağa salınır" [MAD, 1981: 359].

Bölüşdürmə əlaqəsi. Müasir Azərbaycan dilində bölüşdürmə əlaqəsi əsasən bağlayıcıların iştirakı ilə yaranır. Bölüşdürmə bağlayıcılarının funksiyası barədə C. Əfəndiyev yazır: "Cümlədəki vəzifəsinə görə bu bağlayıcılar bir hökmün və ya o hökm əlaqələndiyi əşyanın [predmetlərin] müxtəlif variantlara bölündüyünü və bunlardan ancaq birinin qəbul edilməsi mümkün olduğunu bildirir" [Əfəndiyev, 1947: 152].

M. F. Axundzadənin komediyalarının dilində işlənmiş ***bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlələrdə*** əsasən bir məna xüsusiyyəti özünü göstərir: komponentlərdə müxtəlif iş və hadisələr qeyd olunur, lakin həmin iş və hadisələrdən yalnız birini mümkünlüyü öz ifadəsini tapır. Bölüşdürmə əlaqəsinin bu növü ***ya*** bağlayıcıların iştirakı ilə yaranır; məs.: *Hələ buyurun görək zəhmət çəkməyinizdən qərəz məhz o cənabın ziyarətidir,* ***ya*** *başqa bir məramınız dəxi var?* [Axundzadə, 2007: 36] və s. ***Ya*** bağlayıcısının komponentlərin yalnız birində işləndiyi hallar daha çoxdur; məs.: *Hələ de görüm, sən özbaşınasan,* ***ya*** *sənin atan yerində bir böyüyün var?* [Axundzadə, 2007: 48]; *Yuxudur, görəsən,* ***ya*** *zahirəndir ki, mən sənlə qabaq-qabağa oturmuşam.* [Axundzadə, 2007: 149] və s.

Ədibin komediyalarının dilində bölüşdürmə əlaqəli mürəkkəb cümlələrin əksəriyyəti ***yoxsa*** bağlayıcısının iştirakı ilə yaranmışdır; məs.: Di bəs tez qaç, ***yoxsa*** bu saatda səni öldürrəm! [Axundzadə, 2007: 83]; *Yoldaşlarım yaxınlaşırlar, di itil cəhənnəmə, tez qaç,* ***yoxsa*** *bu saatda qarnını tüstü ilə doldurram!* [Axundzadə, 2007: 83]; Muğayat olun ki, *qaçmasın,* ***yoxsa*** *siz cavab verəcəksiniz!* [Axundzadə, 2007: 86]; Genə gərək bir zad özlərinə qoyaq qalsın; ***yoxsa*** bəd dua yiyəsi olluq. [Axundzadə, 2007: 139] və s.

Qarşılaşdırma əlaqəsi. Ə. Cavadov yazır: "Bu məna əlaqəsi mürəkkəb cümlə quruluşuna daxil olan cümlələrin qarşılaşdırılması

nəticəsində meydana çıxır" [Cavadov, 1974: 74]. Komediyaların dilində işənmiş tabesiz mürəkkəb cümlənin bu növü də semantik strukturuna görə müasir modellərindən fərqlənmir: ya tərkib hissələrdəki iş və hadisələr mahiyyətcə bir-biri ilə ziddiyyət təşkil edir, yaxud da sadəcə olaraq qarşılaşdırılır, müqayisə edilir, fərqləndirilir; məs.: *Xub, min-min tümənə dəyən şəhəri xarab etdirirsiniz, yüz bacaqlı versəniz çoxdur?* [Axundzadə, 2007: 65]; *Mənim sənə yazığım gəlir, amma çarə yoxdur.* [Axundzadə, 2007: 92]; *Mən bir böyük vilayətə vəzarət edib dolandırıram; sən gövdən bir mənim evimi, mənim nökərlərimi dolandıra bilmirsən!* [Axundzadə, 2007: 103] və s.

M. F. Axundzadənin komediyalarının dilində qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrin tərkib hissələri *intonasiya, qarşılaşdırma bağlayıcıları və antonim sözlərin* köməyi ilə əlaqələnmişdir.

Hər hansı cümlənin formalaşmasında və eyni zamanda tabesiz mürəkkəb cümlənin komponentlərinin əlaqələnməsində intonasiyanın çox mühüm rolu vardır [MAD, 1972: 362]. M. F. Axundzadənin komediyalarının dilində də bu xüsusiyyət özünü göstərir; məs.: Ağlım kəsmir, *Bayrama əlli qızıl mənim yanımda sanadılar, kürd atını satmadı.* [Axundzadə, 2007: 74]; *Mərhum zəhmət çəkib sənə pakizə dəlləklik öyrətmişdi, sən ona razı olmayıb, Tiflis dəlləkləri kimi, istədin* ki, həkimlikdə dəxi şöhrət edəsən. [Axundzadə, 2007: 33] və s.

Ədibin komediyalarının dilində də tabesiz mürəkkəb cümlələrin bu növünün tərkib hissələrinin əlaqələnməsində əsas vasitə *qarşılaşdırma bağlayıcılarıdır.* R. Xəlilov yazır: "Qarşılaşdırma bağlayıcısız ifadə olunduğu kimi, bağlayıcı vasitələrlə də yaradıla bilər. İkinci halda qarşılaşdırma özünü daha bariz şəkildə göstərə bilir" [ABDÜ, 1970: 337]. K. Abdullayevə görə, "Qarşılaşdırma əlaqəsinin qüvvətləndirilməsinə xidmət edən bağlayıcılar elə həmcins, paralel komponentlərin və tabesiz mürəkkəb cümlə komponentlərinin arasında işlənir ki, arxa vəziyyətdəki üzvün və ya komponentin məzmunu ilə ön vəziyyətdəki üzvün və ya komponentin məzmunu qarşılaşdırılsın" [Oğuz qrupu türk dillərinin müqayisəli qrammatikası, 1986: 93].

M. F. Axundzadənin dilində işlənmiş qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrin böyük əksəriyyəti ***amma*** bağlayıcısının köməyilə yaranmışdır; məs.: *Molla, mənim özümün pulum var, amma tamam nisyədir.* [Axundzadə, 2007: 31]; *Bəli, belə səfalı yerlər çox tapılar, amma Molla İbrahimxəlil kimi büzürgüvar ələ düşməz.* [Axundzadə, 2007: 36]. Belə cümlələrin bir qismində komponentlər ziddiyyətə görə əlaqələnmişdir; məs.: *Mən getməyə müzayiqə eləmirəm, amma üstümdə heç bir yaraq yoxdur.* [Axundzadə, 2007: 80]; *Gərəkdir tez işi isti ikən həqiqət eləmək; amma hələ*

gərək bir dəftərxanaya getmək. [Axundzadə, 2007: 86]; *Hamı hərəkət edir, amma dalısınca düşən olmur.* [Axundzadə, 2007: 114] və s.

Ümumiyyətlə, tabesiz mürəkkəb cümlənin bu növündə komponentlərin qarşılaşdırılması, müqayisə edilməsi və fərqləndirilməsi yolu ilə əlaqəsi daha çox müşahidə olunur; bu zaman komponentlərdə müxtəlif üzvlər qarşılaşdırılmış olur; məs.:

Mübtədalar qarşılaşdırılır: *Dövlətin çoxdur*, amma *qoçaqlığın yoxdur.* [Axundzadə, 2007: 75]; Gərəkdir tez *işi isti ikən həqiqət eləmək*; amma hələ gərək *bir dəftərxanaya getmək.* [Axundzadə, 2007: 86];

Xəbərlər qarşılaşdırılır: Ağlım kəsmir, Bayrama əlli qızıl mənim yanımda *sanadılar*, kürd atını *satmadı.* [Axundzadə, 2007: 74];

Zərfliklər qarşılaşdırılır: Bu da Qurbanəli həmədanlıdır ki, *gecə* hər iş əlindən gələr, amma *gündüzlər* bazarda corab satar. [Axundzadə, 2007: 179] və s.

Aydınlaşdırma əlaqəsi. Aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələr qapalı sıralı olub, iki komponentdən – iki tərkib hissədən ibarət olur. Tərkib hissələrdən biri ümumilik bildirir, digəri onu izah edib aydınlaşdırır. A. Axundova görə, tabesiz mürəkkəb cümlələrin bu növündə birinci tərkib hissədə ifadə olunan fikir sonrakı tərkib hissədə və ya tərkib hissələrində müəyyənləşir [MAD, 1972: 181]. H.Mirzəzadə yazır ki, aydınlaşdırma əlaqəli bağlayıcısız tabesiz cümlələr yazı abidələrinin dilində o qədər də geniş yayılmamışdır [Mirzəzadə, 1968: 126].

Aydınlaşdırma əlaqəli bağlayıcısız tabesiz cümlələr komediyaların dilində çox işlənmişdir, dilçi alimin bu fikrinə anadilli mənbələrdə tabesiz mürəkkəb cümlələrin komponentləri arasında semantik əlaqələri müəyyənləşdirməyin çətin olması ilə açıqlıq gətirmək mümkündür. Bu məsələ ilə əlaqədar, V.Məmmədov yazır: "Yazılı ədəbi dilin ilkin inkişafı dövrünün ədəbi materiallarını nəzərdən keçirdikcə aydın olur ki, ümumxalq canlı danışıq dilinə daha çox meyl edən sənət ustalarının əsərlərində mürəkkəb cümlə komponentləri elə qovuşmuş olur ki, sonrakı dövrlərindən fərqli olaraq, onları ayırmaq, fərqləndirmək, mürəkkəb cümlə komponenti kimi hansı qrammatik semantikaya üstünlük verildiyini dəqiqləşdirmək o qədər də asan olmur" [Məmmədov, 2001: 111]. Zənnimizcə, yazıb-yaratdığı dövrdən asılı olmayaraq, ümumxalq canlı danışıq dilində yazan sənətkarların hamısının əsərlərində bu xüsusiyyət özünü göstərir; bu da xalq dilinin canlı və hərəkətli, oynaq, hər hansı bir mətləbi asan şəkildə ifadə edə bilmə xüsusiyyəti ilə əlaqədardır. "Azərbaycan ədəbi dili tarixi" kitabında da göstərilir ki, "M. F. Axundzadənin komediyalarının dili həm lüğət tərkibinə, həm də sintaksisinə görə canlı Azərbaycan danışıq dilinin özüdür, bu, gündəlik ünsiyyət vasitəsi olan Azərbaycan dilidir; bədiilik komponentləri,

obrazlılığı ilə yanaşı, onun dili real danışıqdır" [Azərbaycan ədəbi dili tarixi: 1992: 170].

M. F. Axundzadənin komediyalarının dilində tabesiz mürəkkəb cümlələrin bu növünün müşahidə olunan tipi yalnız sintez-analiz üsulu ilə qurulmuşdur, ümumilik bildirən komponent əvvəl, aydınlaşdıran komponent sonra işlənmişdir; məs.: *Uşağı yerə girsin. Dinc oturur məgər! Səhərdən bəri qoymuyub ki, iki çəngə yun darayım; elə şitəngilik edir: gah yunu qapıb, gah çarqatımı dartıb...* [Axundzadə, 2007: 46]; *Hamı bilir ki, sənin əlindən heç bir iş gəlməz; bir oğurluqda, bir quldurluqda, bir qoçaqlıqda adın çəkilməyibdir.* [Axundzadə, 2007: 73]; *Mən səlah görmürəm; sənin işin deyil!* [Axundzadə, 2007: 76]; *A kişi, ov da ələ düşmür; nə bir ceyran var, nə bir turac var...* [Axundzadə, 2007: 81]; *Şəmsəddinin meşələrində ayı çox: hər kəs birini tuta bilər.* [Axundzadə, 2007: 91]; *Sənin arvadın tutuquşu cinsidir; dil-dil ötmək, yalan danışmaq peşəsidir.* [Axundzadə, 2007: 109]; *Bizim də hər birimizin ik atı var: biri yük üçün, biri minik üçün.* [Axundzadə, 2007: 136] və s.

Ədibin dilində iki və daha çox komponentdən ibarət aydınlaşdırma əlaqəli tabeli mürəkkəb cümlələrə rast gəlinir; məs.: *iki komponentdən ibarət olanlar: Bizim də axır qızlıq zamanımız var idi; həyadan baş qaldırıb böyüyümüzün üzünə baxa bilməzdik.* [Axundzadə, 2007: 162]; *Pərzaddan ötrü o indi canından keçər; at, mal nə şeydir?* [Axundzadə, 2007: 74] *və s.*; *daha çox komponentdən ibarət olanlar: Söz açıq gərək: sən məndən ötrü bibimin yanına elçi göndəribsən, o da əbəs yerə razı olub, söz veribdir.* [Axundzadə, 2007: 164]; *Tamahkar adamdır; ondan ötrü bizə də pul verər, özü də bizim ilə gedər.* [Axundzadə, 2007: 123] və s.

Səbəb-nəticə əlaqəsi. Ə. Cavadov yazır: "Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələr birinci tərkib hissəsi səbəb, ikincisi nəticə bildirməklə iki komponentdən ibarət olur. Nəticə bildirən ikinci komponent əvvəlkinə məna və intonasiya ilə bağlanır, birinci komponentdən doğan obyektiv nəticəni bildirir. İşin, hərəkətin ardıcıl şəkildə baş verməsi və birinci cümlədəki işin ikinci cümlədəki işə səbəb olması bu əlaqəni yaradan yeganə vasitədir" [Cavadov, 1974: 77]. Bu xüsusiyyət eyni dərəcədə M. F. Axundzadənin komediyalarının dilinin sintaksisinə də aiddir. Komponentlər intonasiya ilə əlaqələnmişdir; məs.: *O, Tarverdini sevmir, güclə onu heç vaxt ona verə bilməzsiniz.* [Axundzadə, 2007: 94]; *Gələn kimi qardaşımdan qan aldı, Qanı kəsilən kimi qardaşım canın tapşırdı.* [Axundzadə, 2007: 112]; *Xan, qurbanın olaq, cavandır, bu səfər bağışlayın bunun təqsirini!* [Axundzadə, 2007: 114]; Doğrusu, mənim vədəm yaxınlaşıbdır, çıxıb özgəyə nökər duracağam. [Axundzadə, 2007: 137]; Sən qız uşağısan, *ağlın başında yoxdur, öz xeyrini anlamırsan*! [Axundzadə, 2007: 163]; *A canım, o qoşulub qaçanların ata-anası vermir, qızın da çarəsi kəsilir, qoşulub qaçır.*

[Axundzadə, 2007: 125]; *Eşşək ürkür, Arakel qorxusundan eşşəyin üstündən yumbalanır.* [Axundzadə, 2007: 146]; *Üç il divana düşdün, üç il sürgünə sürüldün, gözəl ömrün keçdi.* [Axundzadə, 2007: 34] və s.

Qoşulma əlaqəsi. Tabesiz mürəkkəb cümlədə qoşulma əlaqəsi əsas fikir söyləndikdən sonra əlavə bir fikrin yada düşməsi və bir tərkib kimi birinci komponentə əlavə edilməsi yaranır. Birinci komponentin sonunda intonasiya alçalır, müasir dildə olduğu kimi, ikinci tərkib hissə azacıq fasilə ilə birinciyə qoşulur.; məs.: Əgər mümkün olur isə, mənim üçün Hacı Rəhimdən min manat al, *iki dükanım var, yanında girov olsun.* [Axundzadə, 2007: 31]; *Min manat da mənim üçün al, övrətimin bağını girov verdim.* [Axundzadə, 2007: 32]; *Min manat da mənim üçün al, kəndim girov olsun.* [Axundzadə, 2007: 32]; *Həmaqətini az bildir, o duz başqa duzdur.* [Axundzadə, 2007: 33]; *Parij dağılsın, bizə nə?* [Axundzadə, 2007: 60]; *Ancaq o qızın bir cavan namizədi var, o da mürafiə işində mənə hərif ola bilməz...* [Axundzadə, 2007: 173] və s.

Beləliklə, M.F.Axundzadənin komediyalarının dilində tabesiz mürəkkəb cümlə və onun komponentləri arasındakı semantik əlaqələri nəzərdən keçirərkən məlum olur ki, ədibin komediyalarında işlənmiş tabesiz mürəkkəb cümlələrin müasir strukturu tam formalaşmış şəkildədir. Bir çox hallarda tabesiz mürəkkəb cümlə tam diferensiallaşmamış olsa da, komponentlər arasındakı məna əlaqələri aydın seçilməkdədir.

Ədəbiyyat

ABDULLAYEV A., (1961), *Üslubiyyat məşğələlərinin metodikası*, Bakı

ABDULLAYEV Ə., SEYİDOV Y., QASIMOV A., (1974), *Müasir Azərbaycan dili, Sintaksis*, Bakı

AXUNDZADƏ M.F., (2007) *Seçilmiş əsərləri, 1-ci cild,* Şərq-Qərb, Bakı

AZƏRBAYCAN BƏDİİ DİLİNİN ÜSLUBİYYATI (oçerklər), (1970), Elm, Bakı

AZƏRBAYCAN ƏDƏBİ DİLİ TARİXİ, (1962), Elm, Bakı

BAYRAMOV H. (1960), *Müasir Azərbaycan dilində tabesiz mürəkkəb cümlələr.* Azərbaycan SSR. EA-nın nəşriyyatı, Bakı

CAVADOV Ə. (1974), *Mürəkkəb cümlələrin tərəflərinin sıralanması*, Azərbaycan SSR EA-nın Xəbərləri [Ədəbiyyat, dil və incəsənət seriyası], № 1, Bakı

DƏMİRÇİZADƏ Ə. (1947), *Mürəkkəb cümlələr (I məqalə)*, Azərbaycan məktəbi jurnalı, № 5-6, Bakı

EDİSKUN H. (1988), *Türk dilbilgisi*, Remzi Kitapevi, 3. Basım, İstanbul

ƏFƏNDİYEV C. (1947), *Bağlayıcı* // Azərbaycan dilinə aid tədqiqlər, Bakı

MİRZƏ FƏTƏLİ AXUNZADƏNİN KOMEDİYALARININ DİLİNDƏ İŞLƏNMİŞ TABELİ MÜRƏKKƏB CÜMLƏLƏRİN KOMPONENTLƏRİ ARASINDAKI SEMANTİK ƏLAQƏLƏR

HƏSƏNOVA E. (1986), *Mürəkkəb cümlələrin polipredikativliyi*, dərs vəsaiti, ADU, Bakı

KARAAĞAÇ G. (2012), *Türkçenin söz dizimi*, İstanbul

KARAHAN L. (1993), *Türkçede söz dizimi*, Akşağ yay., 2. Baskı, Ankara

KAZIMOV Q. Ş. (2004), *Müasir Azərbaycan dili.* Sintaksis. "Aspoliqraf LTD" MMC, Bakı

KAZIMOV Q. Ş. (2010), *Seçilmiş əsərləri, 8-ci cild*, Nurlan, Bakı

MƏMMƏDOV V. (2001), *Dastani-Əhməd Hərami" poemasının dili və üslubu*, Bakı

MİRZƏZADƏ H. (1968), *Azərbaycan dilinin tarixi sintaksisi*, Bakı

MÜASİR AZƏRBAYCAN DİLİ, *sintaksis* (1972), Azərtədrisnəşr, Bakı

MÜASİR AZƏRBAYCAN DİLİ, *sintaksis,* (1981), Elm, Bakı

MÜZƏFFƏROĞLU T. (2002), *Müasir Azərbaycan dilində mürəkkəb cümlənin struktur semantikası,* Azərnəşr, Bakı:

OĞUZ QRUPU TÜRK DİLLƏRİNİN MÜQAYİSƏLİ QRAMMATİKASI. II hissə, morfologiya, (1986), Elm, Bakı

RƏCƏBLİ Ə. (2003), *Göytürk dilinin sintaksisi*, Nurlan, Bakı

TAĞIZADƏ Z. (1960), *Müasir Azərbaycan dilinin sintaksisi*, APİ nəşriyyatı, Bakı

YAMAN E. (2000) *Türkiye Türkçesi ve özbek türkçesinin söz dizimi bakımından karşılaştırılması*, Ankara

АБДУРАХМАНОВ Г. (1960), *Основы синтаксиса сложного предложения современного узбекского литературного языка.* Ташкент

БАСКАКОВ Н.А. (1970), *Сложносочиненные союзные предложения в современном турецком языке*, Советская тюркология, № 3, Баку

ГВОЗДЕВ А.Н. (1955), *Очерки по стилистике русского языка*, Москва

КОЛОСОВА А. (1980), *Русское сложные предложение асимметричной структуры.* Воронеж

НАРТЫЕВ Н. (1984), *Строй сложного предложения в современном туркменском языке.* АДД, Баку

ПОКРОВСКАЯ Л. А. (1978), *Синтаксис гагаузкого языка вя сравнительном освещении.* Изд. "Наука", Москва

РОМБАНДЕВА Е. И. (1972), *Синтаксис мансийского (вогульского) языка,* Изд. "Наука", Москва

РУДНЕВ А. Г. (1968), *Синтаксис современного русского языка.* Изд-во "Высшая школа", Москва